# *Mixail ZABELİN:*

# “Vətəni sonadək müdafiə etməyə hazırıq”

Ötən ayın 27-dən başlayaraq Ermənistan silahlı qüvvələri atəşkəs rejimini kobud şəkildə pozaraq Azərbaycan Orudsunun mövqelərini, habelə şəhər və kəndləri iriçaplı silahlardan, o cümlədən minaatanlardan və artilleriya qurğularından, eləcə də qadağan olunmuş fosfor və kaset bombalarından, ballistik raketlərdən atəşə tutaraq ölkəmizə növbəti dəfə təcavüz etmişdir. Nəticədə dinc əhali arasında çoxlu sayda ölənlər  və yaralananlar var.



Buna cavab olaraq Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Ordumuz növbəti hərbi təcavüzün qarşısını almaq və mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə özünümüdafiə hüququ çərçivəsində və beynəlxalq humanitar hüquqa tam riayət edilməklə əks-hücum əməliyyatı başlamışdır.

Yaranmış vəziyyətlə əlaqədar Milli Məclisin deputatı, Azərbaycanda Rus İcmasının sədri, Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü Mixail Zabelin qəzetimizə müsahibəsində bildirmişdir ki, Azərbaycan burada yaşayan hər bir millətdən olan insanlar kimi onun da doğma vətənidir. 1990-cı illər müharibəsində də ruslar Azərbaycanın ərazi bütövlüyü uğrunda düşmənə qarşı döyüşmüşlər. Onların arasında İvan Makeyev və Yuri Kovalyov Azərbaycanın Milli Qəhrəmanlarıdır.

İcmanın sədri qeyd etmişdir ki, ermənilərin növbəti təxribatları ilə əlaqədar rus icması beynəlxalq təşkilatları ikili standartlar siyasətindən əl çəkməyə və işğalçı Ermənistana təzyiq göstərməyə çağırmışdır. Azərbaycan rusları bütün müstəvilərdə, o cümlədən sosial şəbəkələrdə Azərbaycanın haqq işini dəstəkləyirlər:

- Prezident İlham Əliyevin ölkədə hərbi vəziyyət elan etməsi və xalqa, o cümlədən rus icmasına müraciəti hamı tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanmışdır. Ədalət Azərbaycanın tərəfindədir. Bu gün Ordumuz çox güclənmiş, zabit və əsgərlərimizin peşəkarlığı yüksək səviyyədədir. Hər birimiz işğal olunmuş torpaqlarımızın tezliklə azadlığa çıxmasını gözləyirik.

Ermənistanla 30 ilə yaxın davam etmiş danışıqlar heç bir nəticə verməmişdir. Ermənistanın baş naziri son vaxtlar dəfələrlə bildirmişdi ki, BMT-nin Azərbaycan torpaqlarının azad olunması barədə müvafiq qətnamələrini yerinə yetirmək niyyətində deyil. Təbii ki, Silahlı Qüvvələrimiz hərbi təcavüzü cavabsız qoya bilməzdi.

Bizi məyus edən bir də odur ki, Rusiyada və bir sıra digər ölkələrdə ermənipərəst televiziya aparıcıları cəbhədə əcnəbi muzdluların vuruşduğunu və Türkiyənin Azərbaycana hərbi dəstək verdiyini iddia edirlər. Bu iddiaların heç bir əsası yoxdur. Onlar, adətən, saxtakarlığa gedərək Suriya müharibəsindən köhnə kadrlar nümayiş etdirirlər. Prezidentimiz dəfələrlə vurğulamışdır ki, Azərbaycan Ordusunun zabit və əsgər sarıdan heç bir ehtiyacı yoxdur. Türkiyə isə Azərbaycanın ən yaxın dostu, qardaşıdır və bizə yalnız mənəvi dəstək verir. Türkiyənin mənəvi dəstəyi isə sabitləşdirici amildir.

Mixail Zabelin hesab edir ki, vaxtilə beynəlxalq təşkilatlar erməni tərəfini Azərbaycan ərazilərindən çıxmağa məcbur etsəydi, bugünkü vəziyyət yaranmazdı: “Əgər ATƏT-in Minsk qrupu 30 il ərzində bu problemi həll edə bilməyibsə, deməli, Azərbaycan öz ərazisini erməni işğalçılarından azad etmək üçün bütün mümkün vasitələrə əl atmaq hüququna malikdir”.

“Azərbaycanın rus vətəndaşları Prezident İlham Əliyevin torpaqlarımızın terrorçulardan təmizlənməsi ilə bağlı mövqeyini tam dəstəkləyir. Ötən əsrin 90-cı illərinin əvvəllərində olduğu kimi, biz yenə də azərbaycanlı qardaşlarımızla birgə Vətənin bütövlüyünü sonadək müdafiə etməyə hazırıq. Bu, hamımızın, o cümlədən Azərbaycanda yaşayan hər bir rusun Vətən qarşısında müqəddəs borcudur” - deyə Milli Məclisin deputatı vurğulamışdır.

***Rizvan HİLALOĞLU,***
***“Azərbaycan”***

Azərbaycan.- 2020.-13 oktyabr.- S.11.